


# “HEYDƏR ƏLİYEV AZƏRBAYCAN XALQININ TARİXİNİ YAZDI”

**Aqil Abbas: “Ulu Öndərin gözəl bir sözü vardı: “Azərbaycan dünyaya günəş kimi doğacaq”. Bu gün həqiqətən də Azərbaycan dünyaya günəş kimi doğur. Bu, Ulu Öndər Heydər Əliyevin uzaqgörən və müdrik siyasətinin nəticəsidir ki, biz xoşbəxt olmuşuq”.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az




“Məktəbdə” layihəsinin növbəti görüşü Ulu Öndər Heydər Əliyevin 102-ci ildönümünə təsadüf etdi.

336 nömrəli tam orta məktəbdə baş tutan görüşdə millət vəkili, yazıçı Aqil Abbas Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi dövrdə ölkəmizin inkişafı naminə misilsiz xidmətlər göstərdiyini, cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olmasını qeyd etdi.

### HEYDƏR ƏLİYEV SİYASƏTİNİN QƏLƏBƏSİ

Millət vəkili qeyd etdi ki, 1993-cü ildə Heydər Əliyev hakimiyyətə gəlməsəydi, Azərbaycan olmayacaqdı: “Azərbaycan bir neçə yerə bölünəcəkdi. Heydər Əliyev gəldi, Azərbaycanın iqtisadiyyatını yaratdı, dövləti yenidən qurdu. Ulu Öndərin gözəl bir sözü vardı: “Azərbaycan dünyaya günəş kimi doğacaq”. Bu gün həqiqətən də Azərbaycan dünyaya günəş kimi doğur. Bu, Ulu Öndər Heydər Əliyevin uzaqgörən və müdrik siyasətinin nəticəsidir ki, biz xoşbəxt olmuşuq. Biz bu gün Qarabağa qayıtmışıq, Şuşadan, Cıdır düzündən danışırıq. Heydər Əliyev həmişə deyirdi ki, biz Qarabağı azad edəcəyik, Şuşa alınacaq. Biz əvvəllər heç vaxt Azərbaycan xalqının tarixini özümüz yazmamışıq: ərəblər, farslar, başqaları yazıb. Heydər Əliyev Azərbaycan xalqının tarixini özü yazdı. Bu tarixin ardını da hazırda Prezident İlham Əliyev yazır”.

### ÜNSİYYƏTCİL İNSAN

Aqil Abbas Ulu Öndərlə şəxsən görüşdüyünü də xatırladı: “Mən Heydər Əliyevlə görüşmüşəm, söhbət etmişəm. 50 yaşım olanda o, mənə zəng vurdu, təbrik etdi, qiymətli hədiyyələr göndərdi. Onun media işçiləri, ədəbiyyat adamları ilə görüşlərində də iştirak etmişəm. Xalq şairi Məmməd Arazın yubiley tədbirində də söhbətimiz olmuşdu. Yadımdadır ki, foyedə Məmməd Arazın bir qolundan Ulu Öndər, bir qolundan mən tutmuşdum. Xeyli söhbət etdik. Ulu Öndər çox ünsiyyətcil insan idi, qarşısındakına şərait yaradırdı ki, vətəndaş kimi ona ürək sözlərini deyə biləsən. İlham Əliyev də elə ünsiyyətcildir. Qarabağda keçirilən tədbirlərdə mən dəfələrlə bunun şahidi olmuşam”.

### QARABAĞA BÖYÜK QAYIDIŞ

Millət vəkili Qarabağın 30 illik işğaldan azad olunmasına, bu torpaqlarda aparılan quruculuq işlərinə də toxundu: “Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağa böyük qayıdış davam edir. Bu quruculuğu azad olan torpaqlarımızın hər bir yerində görmək mümkündür. Mən tez-tez o bölgəyə, həmçinin Ağdama gedirəm. Havasını udmağa gedirəm. İndi Ağdam çox soyuqdur, adam üşüyür. Şəhəri insanların nəfəsi qızdırır. Şəhər onda şəhər olur ki, orada adamlar yaşayır. Quruculuq işləri başa çatandan, insanlar məskunlaşandan sonra oralarda hər şey gözəl olacaq. İndi Ağdamda gözəl bir şəhər tikilir”.

### CIDIR DÜZÜNDƏN GÖRÜNƏN VƏTƏN

Yazıçı Şuşanın, Cıdır düzünün gözəlliklərindən də bəhs etdi: “Cıdır düzündən baxanda Vətən əl içi kimi görünür: laləli, nərgizli... Elə bil ki, bütün Vətəni o hündürlükdən görürsən. Bir dəfə bir jurnalist “deyirsiniz Şuşa, Cıdır düzü müqəddəsdir. Niyə müqəddəsdir”, - deyə soruşdu. Bilirsiniz, Cıdır düzü niyə müqəddəsdir? Orada Pənah xan, İbrahim xan, Mehdiqulu xan, Natəvan oturub. Məhəmməd bəy Cavanşir orada at çapıb, güləşib. O adamlara görə Cıdır düzü müqəddəsdir. Mən bir dəfə məktəbdə 100 məşhur şuşalının ad-soyadını yazdım. Sonra şuşalılar mənə daha 60 məşhur insanın adını yazıb göndərdilər. Bir balaca şəhər dünyaya 160 məşhur insan bəxş edə bilib. Elə təkcə Üzeyir bəyin, Əhməd bəy Ağaoğlunun adını çəkmək kifayətdir...”

## “DOLU” FİLMİNİN DAVAMI ÇƏKİLƏCƏK

Yazıçı Qarabağ müharibəsindən bəhs edən “Dolu” əsəri əsasında çəkilən filmə də toxundu: “Mən Qarabağ haqqında məğlub olmuş bir xalqın taleyini, amma qələbəsini yazmışam. Əsgərlər komandirə qoşulub Qarabağa gedirlər. Səkkiz il sonra biz həmin yolla piyada Ağdama getdik. Mən “Dolu” filminin davamını yazmışam. Ssenarini Mədəniyyət Nazirliyinə təqdim etmişəm. Yəqin ki, ikinci “Dolu” filmi çəkiləcək”.

### “YAZIÇILIĞI DAHA ÜSTÜN SAYIRAM”

A.Abbas yazıçı və millət vəkili olmağın məsuliyyətindən də danışdı: “Hər ikisi məsuliyyətlidir. İnsan beş il millət vəkili ola bilər, amma yazıçısansa, ömürlük yazıçı olursan. Hər yazılan yazı əbədi qalan bir şeydir. Demirəm, mən böyük yazıçıyam, amma tarixi yazıçılardan öyrənmişəm. Bu mənada yazıçılığı daha üstün sayıram”.

### “O VAXT KOMANDANI DAĞILMAĞA QOYMAMIŞAM”

A.Abbas Ağdam təmsilçisi “Qarabağ” Futbol Klubunun növbəti çempionluğuna da münasibət bildirdi: “Mən “Qarabağ” Futbol Klubunun prezidenti və təsisçisi olmuşam. O vaxt komandanı dağılmağa qoymamışam. Bu gün də komanda ilə bir yerdəyəm. Bugünlərdə “Qarabağ” klubu 12-ci dəfə Azərbaycan çempionu oldu. Bu qələbənin 11-i baş məşqçi Qurban Qurbanovun adı ilə bağlıdır. Mən istərdim ki, Azərbaycan çempionatı güclü olsun ki, “Qarabağ”ın rəqibi yaransın”.

### “İLK MÜƏLLİMİMİN ƏLİNİN TUMARINI HƏLƏ DƏ SAÇIMDA HİSS EDİRƏM”

A.Abbas müəllimlərin əməyini yüksək dəyərləndirərək ilk müəlliminin nəvazişini hələ də xatırladığını dedi: “Leyla adlı ilk müəllimimin əlinin tumarını hələ də saçımda hiss edirəm. Şagirdlərin ləyaqətli insan və vətəndaş olaraq yetişməsində ibtidai müəllimin və sonrakı pillələrdə dərs deyən müəllimlərin, həmçinin təhsil müəssisələrinin rolu böyükdür. Müəllim əməyi ən yüksək dəyərə layiqdir”.

Millət vəkili görüşdə şagirdlərin mütaliəsinə, rəqəmsal dünyada mobil telefonlardan, sosial platformalardan aşırı istifadənin müsbət və zərərli tərəflərinə də toxundu, məktəblilərə tövsiyələrini verdi.



Fotolar: Əjdər İbrahimov - Global Photostock